

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# RÜBAİLƏR, BAYATILAR ALƏMİNDƏ

**Rübai Şərq şeirinin ən qədim formalarından biridir. Döpdlük şeir şəkillərinə daxil olan rübai quruluş etibarilə bayatıyla eynidir. Şərq və Azərbaycan ədəbiyyatında Ömər Xəyyam, Məhsəti Gəncəvi, Xaqani, Füzuli kimi rübai ustadlarını tanıyırıq. Mövzusu rəngarəngdir. Məhəbbət, həyat və ölüm, insan və dünya, gözəlliyin tərənnümü-bütün bunlar rübaidə- fəlsəfi bir ahəngdə öz bədii təcəssümünü tapır.**

Ədəbiyyat tariximizdə böyük bir yol keçən rübai XX əsrdə də şeirimizdə öz ənənəsini davam etdirmiş, nəticədə, rübainin 1eni məzmunlu, müasir həyatla səsləşən nümunələri meydana çıxmışdır. Təbii ki, yazılan, kitab kimi təqdim olunan rübailərin heç də hamısı örnək səviyyəsinə çatmamışdır. Rübainin texniki-struktur xususiyyətlərinə əməl olunsa da, məzmunu bəsit nəzərə çarpan nümunələr az deyildir.

Lerikdə yaşayan şair Qəhrəman Əliyevuin "Özümdən özümə hədiyyəm" kitabı büsbütün rübailərdən, bayatılardan ibarətdir. Hiss olunur ki, Qəhrəman Əliyev istər rübai olsun, istərsə də bayatı, öz könül dünyasını, böyük dünyamız içindəki o balaca dünyanı bizə tanıdır. Əslində, o balaca dünyada böyük dünyamızın ahəngi hiss olunur. Necə deyərlər, damlada ümmanı əks etdirməyə can atır.

**Dünyanın fikrindən yata bilmirəm,**
**Yuxumu gözümə qata bilmirəm.**
**Ah-nalə içində itən dünyanı,**
**Axtarıb gəzirəm, tapa bilmirəm.**

**Dünyanın sərvətin, payın bölürük,**
**Dənizin bölürük, çayın bölürük.**
**Ayları, illəri günlərə bölüb,**
**Vay deyib, bir gün də vayın bölürük.**

**Bu dünyanı görə-görə gəlirik,**
**Yaxşılığın, yamanlığın bölürük.**
**Onun olan hər nəyini bölməyə,**
**Çalışırıq, əlləşirik, ölürük.**

**Alıb sorağını gəldik, a dünya!**
**Qalıb sənə mehman olduq, a dünya!**
**Həyatın mənası bu imiş demək -**
**Mehmanın olaraq öldük, a dünya!**

Qəhrəman Əliyevin rübailəri məzmun genişliyilə ilə diqqəti cəlb edir. Bu rübailərdə müasir insanın zaman, gerçəklik qarşısında hesabatları, sorğu-sualları əks olunur. Bu rübailərdə müəllif bir moralist-didaktik düşüncələri ilə tanış oluruq. Bu rübailərdə həyatda baş verən neqativ hallar-tamahkarlıq, xəyanət, haqsızlvq pislənir. Bu rübailərdə insan ləyaqəti, onun torpğa, Vətənə məhəbbəti ilə qarşılaşırıq. Sevgi də, insanı ucaldan, mənən zənginləşdirən saf məhəbbət də,təbiətin gözəllikləri də nəzərdən qaçmır. Hansı mövzuda yazırsa-yazsın, Qəhrəman Əldiyev hər bir rübaisini bir fikir ətrafında cəm edjir.

**Könlümü alıbdır ala gözlərin,**
**Salıb məni haldan-hala gözlərin.**
**Əzrayıl incidər alsa canımı,**
**Razıyam canımı ala gözlərin.**

Bu rübai klassik rübailərdə nəzərə çapan bir motivin təkrarı olsa da, sevgiyə, saf məhəbbətə sadiqliyi təcəssüm etdirir. Əzrayılın can almasındansa, ala gözlərə can qurban vermək daha gözəldir.Əbədiyyət qanunları var, insan ömrü bu qanunlara sığınır.İnsan və torpaq papaleli bir rübaidə belə təcəssüm olunub::

**Mənəm sənin becərənin, a torpaq,**
**Mənəm sənin cücərənin, a torpaq.**
**Düz deyilsə, düzəlt mənim səhvimi,**
**Mən səninəm, sən də mənim, a torpaq.**

Şair Ağacəfər Həsənli yazır ki: "Qəhrəman Əliyevin rübailərində mfikrin fəlsəfi deyim tərzi üstündür, ancaq müəllif quüru fəlsəfəçiliyə varmır, əsasən sözün poetik qüdrətinə, bədii-estetik tərəfinə yön alıb məna detallarıyla mənzərə yaradır".Əlbəttə, şair filosof deyil və ondan tələb eləmək olmaz ki, şeirlərində fəlsəfə yaratsın. Amma fəlsəfi ruh şeirin mahiyyətinə hopmalıdır. Bu rübaidə olduğu kimi:

**Çox çətindir dünyaya bel bağlamaq,**
**Çox çətindir onu əldə saxlamaq.**
**Ölməku üçün yaşamağa nə var ki,**
**Ölməzliyi qazanmağın çətindir.**

Öncə qeyd etdik ki, Qəhrəman Əliyevin bir çox rübailərində moralist-didaktik-pedonoji düşüncələr də diqqəti cəlb edir. Bu tipli rübailəri biz müasir gəncliyin ünvanına çağırışlar kimi mənalandıra bilərik. Bu rübaidə olduğu kimi:

**Ömrünü mərd yaşayanlar mətindir,**
**Ləyaqətlə şərafət qiymətindir.**
**Bu dünyada yaşamağa nə var ki,**
**Ölməzliyi qazanmağın çətindir.**

Kitabda Qəhrəman Əliyevin üç yüzə yaxın bayatısı toplanıb. Xalq yazıçısı Mehdi Hüseyn yazırdvı ki: "Bayatılar qədər xalq içərisində geniş yayılmış ikinci bir ədəbi janr bəlkə də yoxdur. Azərbaycan folkloru klassik Azərbaycan şeirinin doğma qardaşı sayıla bilər. ..Ümumiyyətlə, bayatılar xalq şüurunun dərinliyini, xalq hissinin zənginliyini ən aydın və ən səmimi şəkildə ifadə edən sadə janr olmaqla bərabər, eyni zamanda ədəbi təsir qüvvəsini hifz edən ən dərin şeir formasıdır".

Bayatı yazmaq deyərdik ki, rübai yazmaqdan daha çətindir. Çünki bayatıda olan məna zənginliyi, dörd misrada fikir söyləmək (həm də forma gözəlliyi) şairdən poetik məharət tələb edir. Qəhrəman Əliyevin bir çox bayatıları (rübailərində olduğu kimi) bu şərtə o qədər də cavab vermir. Amma elə bayatıları var ki, onları tərəddüd etmədən xalq bayatıları və ustadların yaratdıqları bayatılar sırasına daxil etmək olar. Bu bayatılar müasir həyatımızın da reallıqlarını əks etdirir (Bir silsilə "Qarabağ bayatıları" var)

**Əzizinəm, Qarabağ,**
**Solan gülüzara bax.**
**Bizdən kömək gözləyir,**
**Əsir yaylaq, əsir dağ.**

**Əzizinəm, dağ dedim,**
**Gülşən dedim, bağ dedim.**
**Vətən yadıma düşdü,**
**Yandım, Qarabağ dedim.**

**Əzizinəm, güyl əsirn,**
**Tər budaqda gül əsir.**
**Bülbülün gəlişirni,**
**Gül görməyə tələsir.**

**Qəmli baxır gözlərin,**
**Qəlbi yaxır gözlərin.**
**Belə getsə, öldürər,**
**Məni axır gözlərin.**

**Əzizim, yollara bax,**
**Mən gələn yollara bax.**
**Səni qucmaq istəyən,**
**Açılan qollara bax.**

**Əzizinəm, yarı mən,**
**Sevməm özgə yarı mən.**
**Bu can ki, məndə vardır,**
**Yarı sənsən, yarı mən.**

**Beləliklə, Qəhrəman Əliyevin "Özümdəq özümə hədiyyəm" kitabındakı rübailər və bayatıflar haqqında söz açdıq. Doğrudan da, 75 yaşlı bu şairin yaradıcılığı ilə qısaca tanış olduq. Və ona ancaq yaradıcılıq uğurları, cansağlığı, könül xoşluğu arzulamaqla sözümüzü bitirək.**

Ədalət.-2019.-30 noyabr.-S.15.